# İBNİ ABBASA ŞIDDƏTLI XƏBƏRDARLIQ

<"xml encoding="UTF-8?>

İBNİ ABBASA ŞIDDƏTLI XƏBƏRDARLIQ

Əli (əleyhissalam)-ın əshabı arasında Abdullah ibni Abbas fıqh və İslam elmləri həmçinin tədbir baxımından nümuəvi bir kəs idi. Cəməl müharibəsindən sonra Bəsrə, coğrafi-mövqeyi cəhətindən həssas mərkəzlərdən biri idi. Digər tərəfdən də arada böyük müharibənin baş verməsi və adamları hər iki tərəfin qalmış qohum əqrəbalarının orada sakin olmaları Bəsrəni qorxulu və kol altında olan oda bənzədirdi.

Buna görə də bu şəhərin ayıq və tədbirli bir hakimə ehtiyacı var idi.

İmam Əli (əleyhissalam) bu xüsusiyyətləri nəzərə almaqla Abdullah ibni Abbası (öz əmisi oğlu) Bəsrənin hakimi təyin etdi və bir müddətdən sonra bu “xəbərdar edici” təşkilatı ona göndərdi.

Ey Abbasın oğlu! Bil ki, Bəsrə (indi) şeytan məkanı və fitnə toxumu səpilmiş bir yerdir. Buna görə də diqqət et ki, Bəsrə camaatı ilə rəftarın ehsan və məhəbbət əsasında olsun. Onları onlarda olan hökumət qorxusundan çıxar ki, əmniyyət və sakitlik hiss etsinlər. Mənə Bəni-Təmim qəbiləsi ilə pis rəftar etməyin xəbəri çatıbdır. Bil ki bu qəbilə qədim zamanlardan bəri igid kişilər sahibi olmuşdur. Əgər onlardan biri gedərsə digəri onun yerini tutur. Onların cahiliyyət və İslam dövründəki döyüş məharəti və qəhrəmanlıqlarını, həmçinin bizimlə olan qohumluqlarını nəzərə al. Əgər biz onlarla açıq və kin küdurətlə rəftar etsək. sileyi-rəhim etmək əqrabalıq rabitəsi rəvayətini tapdalamış olar və nəticədə Allah bizdən haqq-hesab istər.

Ey Abbasın oğlu! Müdara et! Çalış ki, mənim sənə qarşı olan gümanım davam etsin və sənin .barəndə olan fikirim dəyişməsin